Aqil ABBAS

# 44 GÜNLÜK MÜHARİBƏ

## (Üzü Ağcabədiyə)

(əvvəli qəzetin 2 mart sayında)

Xocavənddən ayrılırıq, üzü Ağcabədiyə. Bir az fikirliyəm. Köməkçim hiss edir:

**- Məllim, niyə fikirlisən?**

**- O uşağı atasıyla danışdıra bilmədim.**

Füzulidə xəstəxanada çəlimsiz bir əsgərlə rastlaşdım. Bədənində bir neçə güllə yarası var idi. Həkimlər ağır əməliyyatdan onu sağ-salamat çıxarmışdılar.

Məlum oldu ki, bu çəlimsiz əsgər düşmən səngərində əlbəyaxa döyüşə girib. Və bu güllə yaralarını da həmin döyüşdə alıb, amma döyüş dostlarıyla birgə düşməni məhv edə biliblər.



Uzaqbaşı 55-60 kiloqram çəkisi olan bu əsgər məni tanıdı.

İki övladı var, döyüşə könüllü gələnlərdəndi.

Onunla bir palatada yatan gəncəli balası deyir:

**- Məllim, bunun belə cılız olmağına baxmayın ey, əjdaha kimi vuruşurdu.**

### *Söhbətləşirik...*

Dedi ki, mənim atam Suraxanı polisində işləyir və sizin oğlunuzla birgə. Təbii ki, mən də onun atasını tanıdım, hətta vaxtilə polis işləyən babasını da. Dərhal atasının nömrəsini öryənib telefonunu aradım ki, onu oğluyla calaşdırım, bilsin ki, oğlu salamatdı və hazırda müalicə olunur. Bir neçə dəfə zəng elədim, telefonu qaldıran olmadı. Dedim ki, oğul, bir azdan atanla danışaram.

Xocavənd yolunda da bir neçə dəfə telefon etdim, yenə cavab vermədi.



Çox pis olmuşdum ki, ata-balanı calaşdıra bilməmişdim.

**- O uşaq gözlərimin qabağından getmir.**

Üzü Ağcabədiyə gedirik. Beyləqandayam, dayanmıram, amma rayonun icra başçısı Asif müəllimə zəng edirəm. Həm rayondakı vəziyyətlə, həm də şəhid və yaralıları ilə maraqlanıram.

Onu da qeyd edim ki, İkinci Qarabağ savaşında ən çox şəhid verən Beyləqan rayonudu 137, hətta bir kəndi var ki (Kəbirli), 19 şəhid verib. İkinci şəhid verən rayon isə Cəlilabad rayonudur ki, 97 şəhidi var.

Asif müəllim deyir ki, şəhid dəfnindəyəm və bir azdan mən sizi yığaram.

Beyləqandan çıxaçıxda zəng gəlir. Deməli, həmin əsgərin atasıdı: Yusif Mənsimov.



**- Təşəkkür edirəm, oğlumla görüşmüsən, uşağı çox sevindirmisən.**

Bir az dərdləşirik. Üstündən bir az keçmiş vaxtılə polis orqanlarında çalışan babası da zəng edib təşəkkür edir.

Onu da qeyd edim ki, bu Böyük Vətən Müharibəsində Azərbaycan polisi də əsgəri ilə çiyin-çiyinə vuruşurdu, nə qədər şəhid verib və nə qədər yaralananı var. Xüsusilə də Daxili Qoşunların qüvvələri.

**II məqalə**

Ağcabədiyə çataçatda rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynova telefon açıram. Təbii ki, hal-əhval tuturam və rayonun nə qədər şəhid verdiyini, nə qədər yaralısı olduğu ilə maraqlanıram.

Bildirir ki, Hacıbədəllidə şəhid yasındayam, bu gün dəfn edəcəyik, sonra görüşərik.

Maşını birbaşa Hacıbədəlliyə sürdürürəm. Kəndə girəndə qabağıma maşın karvanı çıxır. Heç demə, şəhidi Ağcabədidəki Xiyabana gətirirlər. Geri qayıdırıq. Xiyaban Azərbaycan bayraqlarından od tutub yanır.

### *Çox qeyri-adi və ağır bir səhnə idi*

Gün gələr, bunu yazıçı kimi yazaram.

Şəhid öz məzarına sığmırdı.

"Nəsimi" filmində bir yer var: "Mən at ağızlı oğlanlarımı verdim". Bu ifadədən çox xoşum gəlir. "At ağızlı oğlan" nə deməkdir? Qarabağ atları döyüşdə ön pəncələriylə düşmənlə vuruşurdu, ağızlarıyla düşməni parçalayırdı. "At ağızlı oğlanlar" ifadəsi də burdan gəlir. Və bir də belə oğlanlara Qarabağda "lay divar oğlanlar" deyirlər.

Hacıbədəllidən şəhid olan bu igid də "at ağızlı oğlan" idi, "lay divar oğlan" idi və məzarına sığışmırdı.

Onun 9-10 yaşlı oğlunun gözlərinə baxmaq mümkün deyildi. "Lay divar" atasının məzara



sığmadığını və yenidən məzarının genişləndirilməsinə baxan bu uşağın nə çəkdiyini bəlkə heç Allah da bilmir.

### *İcra başçısı bayrağı ona verəndə*

uşaq bayrağı öpüb sinəsinə necə sıxdısa elə bil ki, indicə məzara qoyulan atasını öpüb bağrına sıxırdı. Özümü saxlaya bilməyib kənara çəkildim. Amma heç vaxt o uşağın baxışlarını unuda bilmərəm. Bəlkə də o baxışlar bir romanın mövzusuydu və bəlkə də o romanı yazmaq mənim gücüm xaricindədi.

Sonra başqa şəhid dəfnlərinə gedirik.

Yeri gəlmişkən, Ağcabədi Şəhidlər Xiyabanında Birinci Qarabağ savaşında şəhid olmuş "Azərbaycan Bayrağı" ordenli Əkbər Alıyevin də simvolik məzarı var. Ölümündən sonra doğulan övladını görməyən Əkbər mənim bacımın yol-



daşıdı, polis kapitanı idi. Əslində məzarı Avşar kəndindədi, amma müharibədə şəhid olmuş və hardasa başqa-başqa yerlərdə dəfn edilmiş şəhidlərin də bu Xiyabanda simvolik məzarları var.

Geri qayıdırıq, Sarıcalı kəndinə. Bu kənddə yaşayan Xocalı sakininin müharibədə şəhid olmuş məzarını ziyarət etməyə.

Ordan isə ara yolla Ağcabədinin Qaraxanlı kəndinə gedirik. Bu kənd 3 şəhid verib və bu gün onlardan birinin dəfnidi.Qaraxanlı mənim doğulduğum Bayatın Kolanı kəndi ilə təxminən 2 kilometr məsafədədi. Dəfndə iştirak edirik. Şəhidlərin ailəsinə nə təskinlik verək!

### *Mənim bütün şəhid ailələrinə, xüsusilə də analarına verdiyim bir təskinlik var:*

Tezliklə Qarabağ azad olunacaq, Şuşaya bayraq sancacağıq. Gedib övladlarınızın şəhid olduğu torpaqları görəcəksiniz. Sizin göz yaşlarınız tökülən hər torpaqda şəhidlər çinar olub bitəcəklər, palıd olub bitəcəklər, şümşad olub bitəcəklər, gül-çiçək olub bitəcəklər.

Mən nə zaman Qarabağa gedirəmsə, mütləq Bayatdakı (daha dəqiq, Kolanıdakı) Seyid Heydər Ağanın məqbərəsini ziyarət edərəm, sonra keçib atamın və babalarımın məzarlarını ziyarət edərəm.

Qaraxanlıdan çıxanda icra başçısına deyirəm ki, siz gedin, mən getdim Kolanıya, əzizlərimin qəbrini ziyarət etməyə.



**- Axşama yemək hazırlasınlar?**

Köməkçimin gözlərinə işıq gəlir.

**- Yox, çörəyi ya Bayatda, ya da Əfətlidə yeyəcəm. Amma Qonaq Evinin qapısını açıq qoysunlar gecə qayıdacam, orda qalacam.**

### *Qaraxanlı camaatı ilə görüşürəm,*

dərdləşirəm və üzümü tuturam Kolanıya. Mən Qarabağa gedəndə əsasən üç yerdə çörək yeyirəm: biri doğulduğum Bayatda - Azər Hüseynin pavilyonunda, biri Zəngişalıda - Novruzun yeməkxanasında, biri də Əfətlidə. Bir də hərdən Quzanlıda - "Şır-şır" yeməkxanasında səhər yeməyi yeyərəm. Və təbii ki, həmişə dostlarımla - mənim sevdiklərim və məni sevənlərlə. Restoran yeməkləri o qədər də xoşlamıram. Hər səfərimdə xalam qızı Tahirəyə zəng edərəm ki, gəlirəm, ev yeməyi hazırla, 10-15 nəfər olacağıq. O da mövsümi yeməklər hazırlayar.

Yenə zəng edirəm ki, axşam saat 7-də Bayatda olacam, bir şüyüd plov hazırla, 10-15 nəfərlik. Deyir ki, gecdir, sənin dediyin vaxta plov hazır ola bilməz, dolma bişirərəm, istəyirsənsə bir də dovğa.

**- Yaxşı, Nişatla göndərərsən...**

... Nişat baş leytenantıdı, Ağdam Polis Şöbəsində sahə müvəkkilidi.

Aprel döyüşlərində Ağdamdaydım. Döyüş də gedir. Həmişəki kimi Sarıcalı su anbarının ya-



xınlığında yerləşən hərbi hissəyə getdim vəziyyəti öyrənmək üçün. Məlum oldu ki, hərbi hissə döyüşlərlə bağlı yerini dəyişib. Onda sonuncu posta getməyi qərara aldım. "Dolu" filminə baxanlar görüblər. Bu film sonuncu səngərimizdə çəkilib. Amma həmin səngərdən sonra bizim postlarımız var və təbii ki, düşmən həmin postların yerini bilmir. Mən isə bilirəm. Qayıtdıq geri.

Köməkçim Ceyhun Rüstəmova dedim ki, sür sonuncu posta. Hava da yağışlıdı, göydən yağan güllə və mərmi yağışdan da güclüdü. Hər tərəfə yazılıb ki, mina var.

**- Ceyhun, yük maşınının izi ilə sür, kənara çıxsan minaya düşərik.**

Maşında da mənəm, Ceyhundu, bir də Nişat.

Ceyhunun gözləri dolub, ağlayır.

**- Evdə üç qız qoyub gəlmişəm. Ölsəm onlara kim baxacaq?**

Ceyhunun qızlarının ikisi xəstədi, Heydər Əliyev Fondu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Araz Ağalarov və bir də Mübariz Mənsimov neçə ildi bu uşaqların müalicəsini öz üzərinə götürüblər. (Allaha şükür, indi bir oğlu da olub).

**- Axmaq-axmaq danışma. Ölsək Möhtərəm Prezident mənə Milli Qəhrəman adı verəcək.**

**- Bəs, mən?**

**- Sənin də qəbrinin üstünə yazacaqlar ki, Milli Qəhrəmanın dayısı oğlu...**

... Tahirə xanım deyir:

**- Nişat var? Görsəniz deyin heç olmasa evə bir zəng eləsin.**

Deməli, müharibə başlayan gündən Ağdam polisi postlarda və səngərlərdədi, döyüşürlər. Telefonlarını söndürüblər, heç evlə əlaqə saxlaya da bilmirlər.

**- Uşaqların birini göndərərsən, gəlib aparsınlar.**

Köməkçimin sifəti açılır.

**(Ardı var)**